Təsdiq edirəm

Azərbaycan Turizm və Menecment Universitetinin

rektoru _____ İlham Mədətov

09 yanvar 2024-cü il

Azərbaycan Turizm və Menecment Universitetinin inzibati işçilərinin işə qəbul Proseduru

I. Ümumi müddəalar

1.1. Azərbaycan Turizm və Menecment Universitetində işçilərin işə qəbulu, vəzifə dəyişikliyi universitetin uzunmüddətli strateji inkişafını təmin etməyə yönəlik yüksək ixtisaslı kadr bazasının formalaşdırılması istiqamətində aparılır.

1.2. Azərbaycan Turizm və Menecment Universitetində inzibati işçilərin işə qəbulu Azərbaycan Respublikasının Əmək Qanunvericiliyinə uyğun olaraq aparılır.

1.3. Vakant vəzifələrə müraciət edən namizədlərin sənədlərinin qəbulu, onların təhlili və namizədlə müsahibə İşə qəbul Komissiyası tərəfindən həyata keçirilir.

1.4. Vakant vəzifə üzrə tələb olunan bilik və bacarıqlar həmin vəzifənin təsdiq edilmiş vəzifə təlimatında öz əksini tapır.

1.5. Komissiyada müsbət rəy alaraq müvafiq vakant vəzifəyə uyğun hesab edilən namizədin əmri ATMU-nun rəhbər və inzibati-idarə heyətinin ştat cədvəlinin əsasında rektor tərəfindən təsdiq edilir.

II. Məqsəd

2.1. İşə qəbul prosesində əsas məqsəd universitetin strateji inkişafını təmin etməyə imkan verən və universitetin təşkilati məqsədlərinin həyata keçirilməsinə uyğun olan ixtisaslı kadrların vakant vəzifələrə cəlb edilməsi, doğru pozisiyaya doğru

resursun seçilməsidir. İşə qəbul metodu seçilərkən mədəni normalar, əmək bazarının vəziyyəti, vakant vəzifənin tələbləri, əmək haqqı kimi bir çox faktorlar nəzərə alınır.

2.2. İşə qəbul prosesində digər məqsəd işə qəbul qaydalarının obyektivliyinin və prosesin aydın və şəffaf təşkil edilməsidir.

III. Qaydalar

3.1. Vakant vəzifələr yaranan zaman ilk öncə universitetin daxili resursları İşə Qəbul Komissiyasında analiz edilərək dəyərləndirilir. Uyğun olarsa, müvafiq struktur rəhbərinin təqdimatına əsasən həmin kadr yaranmış vakant vəzifəyə təyin olunur.

3.2. Vakant vəzifəyə daxili resurslardan uyğun kadr olmadığı təqdirdə ATMU-ya kənardan daxil olan müraciətlərə (CV-lər və canlı müraciətlər) İşə qəbul Komissiyasında baxılıb dəyərləndirilərək müsahibəyə dəvət olunur.

3.3. Daxili resurslardan və müraciətlərdən uyğun kadr olmadığı təqdirdə vakant vəzifəyə ATMU-nun web səhifəsində elan yerləşdirilir.

3.4. ATMU-da seçkili vəzifələrin tutulması (dekan, kafedra müdiri) "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən aparılır. Seçkili vəzifələrin tutulması üçün kütləvi informasiya vasitələrində və ATMU-nun rəsmi saytında elan yerləşdirilir. Vakansiya üçün müraciətlərə ATMU-nun Seçim Komissiyasında baxılır.

Seçkili vəzifələrin tutulması prosesi aşağıdakı mərhələlərlə həyat keçirilir:

- Tələbin müəyyən olunması
- Elan verilməsi
- Müraciətlərin qəbul və təhlil edilməsi
- Namizıdlərin seçkisinin keçirilməsi
- Uyğun namizədin təyin edlməsi .

Bu Prosedur Elmi Şuranın 29 dekabr 2023-cü il tarixli, 4 saylı iclasında təsdiq edilmişdir.